

Adnan Özer

## Yol nəğmələri

I

Çoxumuzun bildiyi kimi deyil yollar:
Sol tərəfim,
sol tərəfim kimi uçqun, sağımda axsaqlıq.
Üsküp Köprülü arası, axşamçağı qəhvəyi ölüm,
dərdiyim ilk güldən qanayan bir eşqin illər boyu.
İçilir indi şərabı üzüm saxlımlarının xatirəsindən
Qana təlim keçir, sanki, hər payızın sonu.

Payız sonu axşamçağı girdim Velesə;
anladım, həyatım bir çay yatağı,
qırıq bir qabdan axan quraqlıq.

Velesi bölən çay neçə şəhəri bölən çay kimi axır,
axır beləcə gəncliyimdən son şeylər, hamı kimi.
Hamı kimiyəm mən də, hər qəhvəyi gözlü kimi.
Bax bu dəm burada, axşamçağı, axşamçağıyam mən.

Çoxunun bildiyi kimi deyil yollar:
Sol tərəfim,
sol tərəfim kimi uçqun, sağımda axsaqlıq.
Ürküb bu axşam qoca zəmilər və şoran bağlardan,
uşaqlığımı çağırıram ilk dərdiyim güldən,
yalınayaq yeridiyim yollardan...

II

Titov Velesdə, Koço Ratsinin evində
hicrandan, vüsaldan təkəbbürlə doğmuş
bir neçə yalançı qaraltı ölür içimdə.

Buz kimi soyuq bir payız sonu,
Burada comərdlərə baxıb həyata bağışlayıram
eşqdən gözlədiyim son parıltını da.

Xalqın əzilmiş uşağıyam mən,
varsa bir müqavimətim,
bu üşüyən sərçənin olsun,
varsa sənətim, palçıq olsub çevrilsin masaya.
Titov Velesdə, Koço Ratsinin evində
şorbasız keçən günlərimə qayıtdım,
yalqız bir bağ yolçusu, əldə səbət...

Titov Velesdə, şair Koço Ratsinin evində,
Balkan üsulu
günəşin dalğınlığıyla suvanmış divarlar.
Bax həqiqət bu gur işığın içində.
Anladım, güzgü tutar şairlər
ev işıqlarından, yurd işıqlarından
xalqın gözlərinə, ölümdən gizlicə.

III

Bizim oraları xatırlayıram bu günlərdə;
yuxusu qaçmış bir uşaq xəyalı çəkilmir gözümdən,
Ay işığını içir dəli dalğalar,
qalaylı qab-qacaq görürəm.

Qapımda dayanan əbalı dərviş görürəm:
"Darıxdığına ögey olan sən nə üçün darıxırsan?" deyir,
Bir evi uşaqlara bölə bilmədin:
dibsiz bir tənhalıq için, çölün.
Nə istəyirəm axı tapmadığım köklərimdən?
Belə səfeh və sərsəri hara gedirəm?

Saçları Balkanda hörülmüş anam da öldü.
Qırov düşmüş çəməndi o: sərt, lətafətli.
Hələ də tütün yarpaqları düzür gecələrimə.
Gecələr köynəyim olur mənim,
sətirlər dəbdəbəli.

Dəbdəbəli sətirlərlə aya doğru
Mühacirliyin şeirini yazıram ağlımı itirmədən.
Dəli olmadan uzaq bir yurdu düşünürəm,
qatardan zərrə-zərrə dağılan
duzum üçün darıxıram.

Qaranquş yuvası bu yad damlarda,
yuva qurmaz bir həyat və onun zəhməti,
daim sillələnən bir çolaq
keçib gedir sağılmış bulud kimi bihudə.

Bihudə ömrümdən nə qaldısa artıq
Bir yurd üçün elə darıxdım ki, gedin, deyirəm,
Çıxıb gedin eşqdən,
həyatın mənə verdiyi kədər,
sonuncu eşqin şamı da sönsün,
yoruldu pərvanəsi.

Bizim oraları xatırlayıram bu günlərdə;
yuxusu qaçmış bir uşaqlıq, ürəyi pərvanə;
İsmayılın oğlu, Xəlilin, Məhmədin nəvəsi,
insanlar onu qovdu, o, insanlığın halını soruşdu.

İndi həsir hörür, dizləri türkülərdən qabar,
kötük çıxarır köklərini gizləyən bir çaydan,
xəstəliyə yoluxur
şəhərin axşamüstü qaraltılarından,
düşür boynuna hər tərəfdən bir ərqəvan sətir.

Bizim oralardan aldım bu rəngləri;
Adnan Özər deyirlər, özünəməxsus,
yurdsuzluqdan sərsəri, darıxmaqdan səfeh,
gözləri hələ də o qalaylı qab-qacaqdadır.

IV

Keçir beləcə Balkan günlərim
bir almanın nazikcə soyuanda.
Bıçaq deyil qayğım, qayıtsın geri illər.
Qara bürünür ayazda türküm;
qanayır hər yola düşəndə.

Ölümün dişlədiyi bir meyvəymiş keçmişin xiffəti,
Və uşaqlığın çürüyüb yapışmasıdır dəriyə.
Ah, o qar pıçıltılı bağlar
babamı, əmimi, ən çox da atamı
çağırarmı geriyə?..

Trakya, necə ayrıldım səndən
suvaqlı kərpic bacalardan duman çıxarkən?
Necə də pəncərədə qaldı gözlərin, əziz həyat.
Evsizin evi üçün darıxıram indi,
eyvanda kölgəsiylə.
Ah, o höcət, sıx meşələr
kökümü, gövdəmi, ən çox da ilk sevdamı
qoruyarlarmı əvvəlkitək...

Balkanlar, bəstəboy, sıx meşələr;
quru bir öskürəkdi içimdə kədər.
Melanxolikdim, vərəm oldum axırda.
İndi canımın içinə həsrətəm, üşüyən nəfəsimlə.
İstanbul, qayıtmasam sənə,
qayıtmasam murdar qazanc davasına.
Anamı əlimdən aldın,
bir qadınım vardı arpa saçlı, onu da aldın.
Tökülür indi fitim ayazın çayına.
Ah, Trakya, qumru cümələr, qurqur şənbələr ölkəsi,
cəsədim qayıdacaq sənə əlbət,
mühacirliyə xatirə...

V

Ürəkdən ağır nə daşınar
yolların ruhu olan bu varlığımda?

Dalğalar dənizi daşıyar
cılız atlar kimi kükrəyərək...

Desəm, mən də elə daşıyaram bu ürəyi
keçdiyimi zənn etdiyim dənizlərdən,
aşdığımı sandığım dağlardan
bir daha.... bir başqa çoban kimi
öz çölümdə... və dalğalarımda...
Nə qədər həyəcanla danışsam da,
bu səyyah halımın izahı yox.
Bir qapı bağlanır, bir qapı açılır
tənhalıqdan tənhalığa.

Xəyalını qurdum bir dəfə
içimdəki dənizi üzərək
qarşı sahilə çatmağın.

## Kağız gəmi

Gəzdikcə özündə neçə şəhərlər tapacaqsan,
Xatirəndə qoruduğun bazarlar,
tapıb çıxaracaq kölgəni
Əvvəlki yayların ölü vaxtlarından
Tanıyacaq səni hər yerdə bütün dalğınlığın,
İnandırmağa çalışacaq yenə xəyalların
Arxasına düşməkdən başqa çarə olmadığına.

Nə görsən, köhnə nəyə toxunsan,
ilk həsrətin qədər uzaq,
Var olmaq üçün doğulmayan sən
Çox uzaqdan göndərilmiş bir məktub kimi gəldiyin şəhərlərdə
Dayanma, axtar səbəbin hər an eşqdən ölməyin.

Get bu başından o başına yalnızlığının,
İçindən çay axan bozqır şəhərlərdə
Coşqun dənizlərə axmaq istəyən bir uşaq varmı, bax,
Təəccüblənib Tanrının
kağızdan bir gəmi belə yaratmadığına,
Sən boynuna düşəni elədin,
Xalis bir hüzn duydun parklarda,
Meydanlarda ağlamağın saatını soruşdun,
Aşiqlərdən əvvəl getdin görüş yerlərinə.

İndi bilirsən hər an öldüyünü
Çağırdıqca içindəki şəhərlər xatirə limanlarına
Belə başladı bu gəzmək sevdası, belə də bitər,
Olmayan bir gəmi olmayan bir dənizdə üzər.

Susmaq kimi, Adnan, anladın, bəlkə, sonunda,
Bir gün Şardağında, bir gün Amazonda,
Zamanla özündə nə boşluqlar tapacaqsan,
Var olmaq üçün doğulmayan sən
Heç bir səyyahın yazmadığını yazacaqsan:

Qoy Tanrı düşünsün var olub-olmadığını...

**Türkiyə türkcəsindən uyğunlaşdıran:**
**Ramil Əhməd**